TARİX VƏ SİYASİ ELMLƏR

UOT 902

# GƏDƏBƏY ARXEOLOGİYASI: TƏHLİLİ VƏ TƏBLİĞİNİN ƏHƏMİYYƏTİ

**Sahib VƏLİYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 29 sentyabr 2025; çapa qəbul edilmişdir: 14 oktyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.

Received: 29th of September, 2025; accepted: 14th of October, 2025; published online: 17th of December, 2025.

**Açar sözlər:** *Xocalı-Gədəbəy mədəniyyəti, yaşayış məskəni, tarix, arxeologiya, qala, qalaça, abidə*

## Giriş

Qafqaz Albaniyasında və yaxud Azərbaycan arxeologiyasında, xüsusilə də Xocalı-Gədəbəy arxeoloji abidələrinin və tarixinin öyrənilməsində mühüm məsələlərdən biri də onun tarixi-coğrafiyası olmuşdur. Bu baxımdan hamıya məlumdur ki, Xocalı-Gədəbəy mədəniyyət tarixinin və tarixi coğrafiyasının, eləcə də ayrılıqda qədim yaşayış düşərgəsi olan Gədəbəyin bizim eradan əvvəlki dövrün XIV əsri ilə orta əsrlərə qədər və İntibah dövrlərini əhatə edən abidələrin tədqiqi özünəməxsus yer tutur (4, s.19).

Qeyd etdiyimiz kimi, Albaniyanın tarixi coğrafiyasında olduğu kimi, Xocalı-Gədəbəyin tarixi coğrafiyası və onun əyalətlərinin-vilayətlərinin ayrı-ayrılıqda sistemli şəkildə öyrənilməsi də günümüzün tələbləri səviyyəsində, arxeoloji tədqiqatçılar, araşdırıcılar və qazıntılar aparanların qarşısında duran əsas məsələlərdən biridir. Bu dövrlərin arxeoloji abidələrinin öyrənilməsi, onun araşdırılması da müasir dövrümüzün arxeoloqlarının öhdəsinə düşən əsas məsələlərdən biridir. Xocalı-Gədəbəy mədəniyyətində və tarixində ayrıca şəkildə Gədəbəy əyalətini götürsək, bu yaşayış məskənlərinin tarixi, tarixi coğrafiyası və istər açıq tipli, istər qapalı tipli, istər qazma tipli, istər mağara tipli, istərsə də oyma daşların, istər qayalar üzərindəki rəsmlərin, istər qalaların, qalaçaların, abidələrin, daş heykəllərin, heyvan və digər əşyaların təsvirlərinin, istərsə də yeraltı və yerüstü qəbir abidələrinin öyrənilməsini vurğulaya bilərəm (1, s.27).

Sovet hakimiyyəti dövründə Gədəbəy rayonunun ərazisində arxeoloji tədqiqatların və qazıntıların yetərincə aparılmaması və yaxud bu qədim yaşayış düşərgələrinin bəzilərində aparılan tədqiqatlar və axtarışlar rusyönümlü arxeoloqların olmasının səbəbindən, bu yerlərdəki tapıntıların müəyyən hissəsini Azərbaycan adətindən, ənənəsindən və milli mənəvi dəyərlərimizdən kənar tutaraq mənimsənilmişdir desək, yanılmazdıq. Bu dediklərimiz arxeofaktları hal-hazırda da həmin yerlərdə görməyimizə baxmayaraq, həmin o tarixi arxeofaktlar Vətənimizin qonşuluğunda yaşayanların tarixi məkanı kimi qeyd olunur. Məsələn, İrəvan, Dərbəndin Dəmirqapı, Mahaçqala və Keşikçidağ kimi qədim yaşayış düşərgələrimizi göstərə bilərik (6, s.15).

## 1. Azərbaycan arxeologiyasının inkişafı və Xocalı-Gədəbəy mədəniyyəti

* *tarix üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
*e-mail:* s.valiyev70@gmail.com
https://doi.org/10.30546/25194011.2025.14.5.3035

Azərbaycanın qədim tarixi və zəngin mədəni irsi hər zaman yerli və xarici alimlərin diqqət mərkəzində olmuşdur. Ərazimizin coğrafi mövqeyi, əlverişli iqlim şəraiti və təbii sərvətləri burada yaşayan qədim insanların mədəniyyətinin inkişafına güclü təsir göstərmişdir. Bu baxımdan, arxeoloji tədqiqatlar, qazıntılar və əldə edilən maddi-mədəniyyət nümunələri yalnız Azərbaycan tarixinin deyil, ümumilikdə Qafqaz və Ön Asiya mədəniyyət tarixinin öyrənilməsində mühüm rol oynayır.

Arxeoloji tapıntılar göstərir ki, Azərbaycanın ərazisi ən qədim dövrlərdən etibarən insan məskəni olmuş, burada ilkin əmək alətləri, yaşayış yerləri, qəbirlər və müxtəlif mədəniyyət nümunələri meydana gəlmişdir. Bu materiallar əsasında ölkəmizin tarixi inkişaf mərhələlərini ardıcıl izləmək mümkündür. Xüsusilə Xocalı-Gədəbəy mədəniyyəti Azərbaycanın arxeoloji xəzinəsində özünəməxsus yer tutur və bu mədəniyyətin öyrənilməsi xalqımızın qədim etnik-mədəni kimliyini anlamaqda mühüm mənbə hesab olunur.

## 2. Qədim qala və qalaçalar kontekstində Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti və tarixi

Azərbaycan arxeologiyasının öyrənilməsində qədim yaşayış məskəni olan Gədəbəy rayonunun ərazisi, eləcə də Qafqaz Albaniyası dövrünə aid arxeoloji abidələrin tədqiqi elmimizin başlıca məqsədlərindəndir. Bu sahədə müxtəlif dövrlərdə həmin ərazilərdə ayrı-ayrı mütəxəssislər sistemli elmi araşdırmaları ilə seçilmişdir. Burada onu da qeyd edə bilərəm ki, qədim tarixə malik olan Gədəbəy yaşayış düşərgələrinin arxeoloji tədqiqatı, axtarışı və qazıntıları ilə məşğul olan və bu sahədə özünəməxsus elmi əsərləri ilə seçilən arxeoloq alimlərimizin sayı az olmuşdur (8, s. 11).

Azərbaycanın digər bölgələrində olduğu kimi, Kiçik Qafqaz silsilə dağları boyunca sıralanan, hündürlüyü dəniz səviyyəsindən 2901 metr olan Şahdağın ətəyində yerləşən Gədəbəy rayonunun ərazisində də 1974-1982-ci illərdə aparılmış arxeoloji axtarışların, tədqiqatların, arxeoloji qazıntıların uğurlu nəticələri və arxeologiya, etnoqrafiya, numizmatika və epiqrafika sahələrinə aid aşkar edilmiş maddi mədəniyyət nümunələri müəyyən edilmişdir (15, s. 92).

Son illərdə Azərbaycanın bütün bölgələrində arxeoloji tədqiqatların, axtarışların və qazıntıların sayı artırılmışdır. Bu baxımdan da Azərbaycan Milli Elmlər Akademiyasının tərkibində fəaliyyət göstərən Arxeologiya və Etnoqrafiya İnstitutunun üzərinə böyük məsuliyyət qoyulmuşdur. Beynəlxalq elmi konfransların keçirilməsi, tədbirlərin hazırlanması, bu günlərə kimi qədim yaşayış yerlərinin, qalaların, qalaçaların, mağaraların, abidələrin, yeraltı və yerüstü qəbir abidələrinin və yerli həvəskar arxeoloqlar tərəfindən aşkar olunmuş və digər milli mənəvi dəyərlərimizi əks etdirən maddi sübutların olmasına baxmayaraq, onların aşkar olunmasına dair qərarların qəbul olunması, yerli istinadlara uyğun olaraq arxeoloji qazıntıların aparılmasına start verilməsi və bunlar kimi digər məsələlər haqqında fikirlərin yürüdülməsini də misal kimi deyə bilərik (10, s. 132).

Azərbaycanın müstəqilliyi illərində yeni mərhələyə qədəm qoymuş arxeologiya və etnoqrafiya elmləri dövlət rəhbərliyinin diqqət və qayğısı sayəsində sürətlə inkişaf etməkdədir.

Xocalı–Gədəbəy obyektləri ümumilikdə e.ə. II minilliyin sonları - e.ə. I minilliyin əvvəlləri (Son Tunc-Erkən Dəmir dövrü) ilə assosiasiya edilir. Bu xronologiya keçid – metallurgiyanın yüksəlişi, daha kompleks sosial strukturların formalaşması, geniş kurqan ənənələrinin inkişafı dövrüdür.

Erkən tarixi dövrlər (alban və sonrakı mərhələlər): yerli alban qruplarının maddi-mədəniyyət izləri, ibadətgah və qala komplekslərinin yaranması. Xocalı-Gədəbəy keramikası cilalanmış formalara, müxtəlif süzgəcli və sırğalı səth bəzəklərinə malikdir. Tipoloji analiz göstərir ki, bu keramika həm lokal ənənələri, həm də qonşu regionların (Şi-

mali Mesopotamiya, Anadolu, Qafqazın şimal hissələri) təsirini əks etdirir. Çıxarılmış keramika parçalarının texnoloji təhlili (makro və mikrostruktur, mineral tərkibinin petroqrafik analizi) onların istehsal mərkəzlərinin lokal və regional xarakteri barədə məlumat verir. Regionda mis, tunc və dəmir emalı ilə bağlı nümunələr geniş yayılmışdır. Gədəbəy zonası təbii metal yataqlarına yaxınlığı səbəbindən qədim dövrdə mədənçilik və metal işləmə mərkəzi kimi çıxış etmişdir. Arxeometallurgik analiz (metal analizləri, izotop tədqiqatları) kömək edir ki, xammal mənbələri və istehsal texnologiyaları müəyyən olunsun. Qəbir üslublarında tez-tez metal silah və alətlərin müşayiəti müşahidə olunur ki, bu da metallurgiyanın sosial status və iqtisadi əhəmiyyətini göstərir. Kurqanlar və qəbir komplekslərindən çıxarılan bəzək əşyaları (qızıl, gümüş, misdən hazırlanmış zinət əşyaları, şüşə və fayans bəzəkləri) regionun sosial stratifikasiyasını göstərir. Zəngin dəfnlərdə yüksək keyfiyyətli zinət əşyalarının mövcudluğu, elit təbəqənin və mümkün siyasi-hərbi rəhbərlərin olmasını sübut edir. Kurqan (möhkəm yüksəklikdə tikilmiş qəbir) ənənəsi Xocalı–Gədəbəy mədəniyyətinin ən əhəmiyyətli xüsusiyyətlərindən biridir. Kurqan qazıntıları zamanı rast gəlinən hallar: Atlara və at arabalarına aid materiallar: bəzi dəfnlərdə atların və at arabalarının məzara qoyulması tapılıb - bu, regionda atın yüksək statusunu və atçılıq ənənələrinin varlığını göstərə bilər.

Silah və döyüş əşyaları: dəfnlərlə birlikdə silahların qoyulması cəmiyyətin hərbi elementi və elit döyüşkən statusu barədə məlumat verir. Xocalı–Gədəbəy bölgəsində yerləşən yaşayış düşərgələri və qala-məskunlaşma strukturları topoqrafiyaya uyğunlaşdırılmışdır: dağ yamaclarında və yüksəkliklərdə yerləşən qalalar (strateji nöqtələr), çayboyu düzənliklərdə isə kənd təsərrüfatına əlverişli yerlər. Arxeoloji materiallar yaşayış evlərinin konstruksiyası (daş və çiy kərpic), aşağı qatlı mətbəx quruluşları və sənətkar emalatxanaları (mis, tunc emalatxanaları) haqqında məlumat verir.

### 3. Xocalı-Gədəbəy mədəniyyəti kontekstində yaşayış məskənləri və qala tipli abidələrin arxeoloji tədqiqi

Gədəbəy rayonunun Söyüdlü, Böyük Qaramurad kəndi, Qara Məmmədli və Keçmiş Şurabad (Sovetabad) – indiki Şahdağ kəndinin ərazilərindəki qalaları, qalaçaları və qədim yaşayış yerlərində antik və erkən orta əsrlər dövrünün möhtəşəm şəhər qalıqları aşkara çıxarılmışdır. Bu ərazilərdə şəhər tipli yaşayış məskənlərinin olması hələ antik dövr müəlliflərinin əsərlərində qeyd edilmişdir. Arxeoloji qazıntılar bu yazılı məlumatların düzgün olduğunu bir daha təsdiq etdi və burada Qafqaz Albaniyasının bu vaxtadək məlum olmayan şəhər abidəsinin və daha qədim yaşayış yerinin olmasını üzə çıxardı. O dövrlərdə Qafqaz Albaniyasının paytaxtı Qəbələ şəhərinin olmasına baxmayaraq, Gədəbəy rayonunun ərazisində məskunlaşma oradakı yaşayış düşərgələrinin çox olması ilə öz təsdiqini tapır. Bu yaşayış ərazilərindəki hər bir tapıntının qalıqları, zəngin yaşayış düşərgələrini əks etdirən maddi mədəniyyət nümunələri, o cümlədən iqtisadi ticarət əlaqələrinin yüksək inkişaf səviyyəsində olduğunu göstərən numizmatika materialları aşkar edilmişdir. Bunun kimi də qədim yaşayış məskənlərinin erkən yaşayış mədəniyyətinə aid olması barədə elmi ədəbiyyatlarda fikirlər öz əksini tapmışdır (12; 14, s. 60).

Bu yaşayış ərazilərindəki arxeoloji tədqiqatlar, istər axtarışlar, istərsə də arxeoloji qazıntılar isə bu fikirləri bir daha təsdiq edən, erkən yaşayış mədəniyyətinə xas olan bütün strukturların aşkar edilməsi ilə nəticələnmişdir.

Arxeoloji qazıntılar zamanı əldə olunan maddi mədəniyyət nümunələrinə şamil olunan zəngin maddi-mədəniyyət nümunələri – saxsı qablar, tunc və dəmirdən hazırlanmış xəncərlər, bıçaqlar, müxtəlif minerallardan hazırlanmış bəzək əşyaları aşkar edilməkdədir. Burada Xocalı-Gədəbəy mədəniyyətinə əsaslansaq, arxeoloji materialların təhlilinə və oxşarlığına diqqət yetirəndə Gədəbəy rayonunun ərazisindəki qədim yaşayış düşərgəsindən tapılan tapıntıların əksəriyyəti b.e.ə. XIV minillikdən b.e.ə. I minilliyini

əhatə etdiyini müəyyənləşdiriblər. Xocalı-Gədəbəy mədəniyyətinə aid olan və diqqəti çəkən məqamlardan biri də bəzi qəbirlərdə qoşa dəfnin həyata keçirilməsidir. Bu qədim yaşayış düşərgələrində aparılan arxeoloji axtarışlar, qazıntı işləri və qazıntı zamanı aşkara çıxarılmış eksponatlar haqqında istənilən qədər faktları deyə bilərik. Yaşayış yerlərindən aşkar olunmuş və maddi mədəniyyət nümunələrinin qalıqlarını misal göstərib onların "Qala" və "Qalaça" tipli yaşayış yerləri olma ehtimalını irəli sürmək olar (13).

Eramızdan əvvəl II minilliyin sonları və I minilliyin əvvəllərinə aid edilən Xocalı-Gədəbəy mədəniyyəti Qafqaz Albaniyasının qədim ərazilərində geniş yayılmışdır. Bu mədəniyyət daha çox qəbir abidələri, kurqanlar, daş qutu qəbirlər və zəngin dəfn ənənələri ilə seçilir. Tapılan maddi nümunələr arasında silahlar, keramika məmulatları, bəzək əşyaları, əmək alətləri, qızıl-gümüşdən hazırlanmış zinət əşyaları vardır. Bütün bunlar qədim insanların məişəti, dini inancları, dəfn adətləri və təsərrüfat həyatı haqqında qiymətli məlumat verir.

Gədəbəy, Xocalı, Daşkəsən, Şəmkir və digər bölgələrdə aparılan qazıntılar zamanı əldə edilən materiallar göstərir ki, Xocalı-Gədəbəy mədəniyyətinə aid tayfalar həm oturaq, həm də yarımköçəri həyat tərzi sürmüşlər. Onlar metallurgiya, xüsusilə də tunc və dəmirin emalı sahəsində mühüm nailiyyətlər qazanmış, kənd təsərrüfatı ilə yanaşı maldarlıqla da məşğul olmuşlar.

Bu mədəniyyətin ən mühüm xüsusiyyətlərindən biri də zəngin dəfn mərasimləridir. Kurqanlarda aparılan qazıntılar zamanı müxtəlif silah nümunələrinin ölülərlə birlikdə basdırılması onların döyüşkən toplum olduqlarını göstərir. Zinət əşyalarının çoxluğu isə həmin tayfaların sosial təbəqələşməsini, tayfa başçılarının və zadəgan təbəqəsinin mövcudluğunu sübut edir.

Gədəbəy və ümumilikdə Qərb bölgəsi yalnız Xocalı-Gədəbəy mədəniyyəti ilə deyil, həm də sonrakı mərhələlərdə formalaşmış Qafqaz Albaniyasına aid abidələrlə də zəngindir. Qala divarları, ibadətgah qalıqları, daş kitabələr və digər nümunələr Alban dövlətinin siyasi, iqtisadi və mədəni inkişafından xəbər verir. Bu abidələrin tədqiqi Azərbaycanın qədim dövlətçilik ənənələrinin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Gədəbəy qədim yaşayış düşərgələrinin və onun arxeologiya elmində mövcud elmi problemlərdən biri bəzi tarixi mərhələlər arasında varislik əlaqələrinin öyrənilməsindən ibarətdir. Eneolit və ondan sonrakı ilk tunc dövrü arasındakı varisliyin mövcudluğu bu gün də tədqiqatçıların diskusiya obyekti olaraq qalmaqdadır.

### 4. Son Kiçik Qafqazın arxeoloji landşaftında Xocalı-Gədəbəy yaşayış məskənləri və müdafiə qalaları

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən Gədəbəy rayonunun ərazisində qeydə alınmış qədim yaşayış düşərgələrindəki və arxeologiya elminin formalaşmasında qədim yaşayış düşərgəsi olan Gədəbəy rayonu ərazisindəki min illərin yaddaşı, yaşayış düşərgələrindən: qalalar, qalaçalar, qəsrlər, qüllələr, körpülər, yeraltı və yerüstü qəbir abidələrini xatırladan qədim insan məskənlərinin adını çəkə bilərəm. Məsələn, bunlara misal olaraq:

*"Altıbulaq qalası"* (Son tunc-erkən dəmir dövrü, Novosaratovka kəndi);

*"Qarabağ qalası"* (Son tunc-erkən dəmir dövrü, Arıqdam kəndi) ;

*"Pir qalası"* (Son tunc-erkən dəmir dövrü, Qumlu kəndi, şimal-qərb);

*"Koroğlu qalası"* (kimi tanınan "Namərd" və yaxud "Cavanşir qalası" kimi də səslənir yerli camaat arasında. Son tunc-erkən dəmir dövrü, Qalakənd kəndi);

*"Qrex qalası"* (Son tunc-erkən dəmir dövrü, Maarif kəndi);

*"Parakənd qalası"* (Son tunc-erkən dəmir dövrü, Parakənd kəndi);

*"Körpü"* (XIX əsr, Gədəbəy şəhəri);
*"Kilsə"* (Gədəbəy şəhəri, 3 km-də);
*"Körpü"* (Qalakənd kəndi);
*"1 nömrəli körpü"* (XIX əsr, Səbətkeçməz kəndi);
*"2 nömrəli körpü"* (XIX əsr, Səbətkeçməz kəndi);
*"3 nömrəli körpü"* (XIX əsr, Səbətkeçməz kəndi);
*"Məbəd"* (1535-ci il, Novosaratovka kəndi);
*"Körpü"* (Söyüdlü kəndi);
*"Məbəd"* (Söyüdlü kəndi);
*"Məbəd"* (1634-cü il, Böyük Qaramurad kəndi);
*"Körpü"* (XIX əsr, Yenikənd kəndi);
*"Məbəd"* (XIX əsr, Çanaqçı);
*"Kilsə"* (Çanaqçı kəndi);
*"Körpü"* (Çanaqçı kəndi);
*"Məbəd"* (Əyrəvəng kəndi);
*"Məbəd"* (Kilsəli kəndi);
*"Körpü"* (XIX əsr, Əlinağılar kəndi);
*"Məbəd"* (Gəndərə ərazisi);
*"Koroğlu mağarası"* (Orta əsr, Novosaratovka kəndi, cənub-qərb);
*"Qız qalası"* (IX əsr, Söyüdlü kəndi);
*"Qala"* (XVI əsr, Qalakənd kəndi),
*"Qalaça"* (Şurabad kəndinin ərazisində;
*"Qalaça"* (Çobankənd ərazisində);
*"Kilsə"* (Yenikənd ərazisində) və Koroğlu qalası Şurabad kəndinin 10 kilometrliyində yerləşən qalaları, qalaçaları, körpüləri, kilsələri, yeraltı və yerüstü qəbir abidələrini də qeyd edə bilərəm (5).

Qeyd edək ki, Gədəbəy rayonunun ərazisindəki qədim yaşayış məskənləri də daxil olmaqla, daşınmaz tarix-mədəniyyət abidələrinin son siyahısı 2001-ci ildə təsdiq edilib. Həmin siyahıda 6308 tarix və mədəniyyət abidəsi mövcuddur ki, onlardan 4326-sı Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin nəzarətindədir (5; 3).

Aparılmış təhlillər zamanı mövcud siyahıda bir sıra səhvlər, o cümlədən abidələrin adları, tarixləri və digər məlumatlarında uyğunsuzluq, xeyli sayda tarixi, memarlıq və arxeoloji əhəmiyyəti olan obyektlərin reyestrə daxil edilmədiyi kimi çatışmazlıqlar aşkar edilib. Bunların da əksəriyyəti Gədəbəy rayonunun ərazisindəki qədim yaşayış məskənlərindəki qalaların, qalaçaların, məbədlərin, körpülərin və s. payına düşür.

Mövcud siyahıdakı səhvlərin aradan qaldırılması, həmçinin tarixi, memarlıq və arxeoloji əhəmiyyət kəsb edən nümunələrin dövlət mühafizəsində olan abidələr siyahısına daxil edilməsi məqsədilə Mədəniyyət Nazirliyi yanında Daşınmaz Mədəni Sərvətlərin Müəyyən Edilməsi üzrə Ekspert Şurası yaradılıb. Sözügedən məsələlərin həlli istiqamətində Ekspert Şurası tərəfindən həyata keçirilən işlər davam etdirilir. Ümidvarıq ki, həmin Ekspert Şurası tərəfindən Gədəbəy rayonunun ərazisindəki qədim yaşayış məskənlərindəki qeydə alınmamış bəzi qalaçalar, qalalar, rabitə tipli yeraltı və yerüstü qəbir abidələri və s. də yaxın vaxtlarda qeydə alınacaq. Bu da arxeologiya elminin daha da formalaşmasına təkan olacaq (17).

Mübahisəli məsələlər əsnasında yaranan ziddiyyətli nəticələr tədqiqatçılar arasında uzunmüddətli müzakirələrə səbəb olmaqdadır.

Xocalı-Gədəbəy mədəniyyətinə əsaslanaraq, digər nüfuzlu mənbələrdən istifadə etməklə qədim tarixə malik olan yaşayış məskənlərində tədqiqatların, axtarışların və arxeoloji qazıntıların olduğunu, Gədəbəy rayonunun ərazisindəki "Qalalardan", "Qalaça-

lardan", ən qədim tarixə söykənən insan məskənlərindən, abidələrdən və dəfn abidələrindən əldə olunan qalıqları və o yerlərdən tapılan maddi-mədəniyyət nümunələri ilə bir daha təsdiq etməliyik. Ziddiyyətli məqamları aradan qaldırmaq üçün müqayisəli təhlillər aparıb oradakı oxşar cəhətləri dəyərləndirməklə adət və ənənələrimizi bir daha təsdiq etməliyik (11).

Elmi biliklərin sərhədlərini inkişaf etdirmək üçün arxeoloji tədqiqatların, axtarışların və arxeoloji qazıntıların sayını artırıb yerli mənbələrin dedikləri və verdikləri faktlara əsaslanmaqla tarixi mənbələrimizi bir daha təsdiq etməliyik.

Arxeoloji tədqiqat, axtarış və arxeoloji qazıntılarla yanaşı elmi kəşfiyyat aparmaqla, həvəsi olan yerli həvəskar arxeoloqlarla illərlə təcrübəsi olan mütəxəssisləri bir araya gətirib müasir tariximiz üçün və gələcək tədqiqatçılar üçün əvəzolunmaz mənbələr yaratmış olarıq (7).

Gədəbəy rayonunun ərazisindəki qədim insan məskənlərini və qədim tarixə malik olan yaşayış düşərgələrini müasir elmin ən son tendensiyaları ilə bir araya gətirib onun aktual problemlərini hərtərəfli işıqlandırmaqla, müasir elmi perspektivləri və tətbiqi elmlərdə diqqətəlayiq nailiyyətləri kimi təqdim etməklə bir daha dünyaya tanıdıb özümüzü təsdiq edə bilərik (16).

Bu günə qədər Gədəbəy rayonunun ərazisində yüzlərlə aşkar olunmamış tədqiqat, axtarış və qazıntısı aparılmamış yaşayış məskənləri, yaşayış düşərgələri, qalaları, qalaçaları, abidələri, mağaraları vardır ki, hələ də bu günə kimi onların problemləri həll olunmamış kimi qalmaqdadır. Onları həll etməkdən və potensial həll yollarını təklif etməkdən qürur duyuruq (9).

Azərbaycanın digər bölgələri ilə yanaşı Gədəbəy zonasında da aparılan arxeoloji tədqiqatların, axtarışların və arxeoloji qazıntıların uğurlu nəticələri və arxeologiya, etnoqrafiya, numizmatika və epiqrafika sahələrinə aid aşkar edilmiş maddi mədəniyyət nümunələri görkəmli arxeoloqlarımız tərəfindən də aşkar edilib müəyyənləşdirilmişdir (2).

Bu məqalədə Azərbaycan ərazisinin qərb bölgəsində, xüsusilə Xocalı-Gədəbəy (Gədəbəy daxil olmaqla) mədəniyyət mərkəzlərində aparılmış arxeoloji tədqiqatlar və tapıntılar sistemli şəkildə təhlil edilir. Məqalə Xocalı–Gədəbəy mədəniyyətinin xronologiyası, maddi-mədəni nümunələri (keramika, metallurgiya, zinət əşyaları), kurqan və qəbir adətləri, yaşayış məskənlərinin strukturu və alban dövrü abidələri ilə əlaqəsini araşdırır. Həmçinin regionun coğrafi və geoloji şəraiti, arxeoloji metodologiya (səthi sorğu, geofiziki tədqiqatlar, stratiqrafik qazıntılar, radiokarbon analizlər, paleobotanika və zooarxeologiya) və gələcək tədqiqat prioritetləri müzakirə olunur. Məqalədə həmçinin son illərdə aparılmış tədqiqatların (şəkillərdə göstərilən mətnlərdə də əks olunduğu kimi) abidələrə təsiri, işğal və vandalizm nəticələri və abidələrin qorunması problemləri nəzərdən keçirilir.

**Nəticə**

Elmi arxeoloji biliklərin sərhədlərini inkişaf etdirməyə və nüfuzlu mənbələrdə qabaqcıl tədqiqatların yayılmasına nail olmaqla, arxeoloji tədqiqatlara, axtarışlara və qazıntılara üstünlük verib, müasir texnologiyaların vasitəsi ilə yeni qədim yaşayış düşərgələrinin tapılmasına nail olmalıyıq.

Onu da qeyd edim ki, arxeologiya və arxeofaktlar istiqamətində tədqiqatlar və axtarışlar aparıldığı və fəaliyyətə başladığı gündən, aşkar olunan hər bir yeni fakt və qədim yaşayış məskənləri elmi kəşfiyyat, qazıntı həvəsi olan həvəskar arxeoloqlar, akademiklər, tələbələr, mütəxəssislər və tədqiqatçılar üçün əvəzolunmaz mənbə olmuşdur.

Yeni arxeoloji arxeofaktlar və tapıntılar müasir elmin ən son tendensiyalarını və onun aktual problemlərini hərtərəfli işıqlandırması, müasir elmi perspektivləri və tətbiqi elmlərdə diqqətəlayiq nailiyyətləri təqdim etməsi ilə tanınır. Yeni qədim yaşayış düşər-

gələrinin tapıntısı elmi məqalələr, konfrans və tezislər vasitəsilə problemləri həll etməkdən və potensial həll yollarını təklif etməkdən qürur duyur.

Müasir zamanımızda arxeoloji tədqiqatların, axtarışların və qazıntıların sayının artırılması və əldə olunan nailiyyətlərin fərqliliyi Gədəbəy rayonunun qədim yaşayış düşərgəsi olduğunu bir daha sübut etmiş oldu.

Bu yerlərdəki qədim insan məskənlərinin arxeoloji tədqiqatları, axtarışları, elmi praktiki ölçüsü və keyfiyyəti standartlara uyğun olması müasir tələblər səviyyəsində deyil. Çünki həvəskar arxeoloqlar tərəfindən aparılan tədqiqatlar, axtarışlar və arxeoloji qazıntılar cəmiyyətin və dövlətin qoyduğu tələblərdən çıxıb, yerli əhalinin kortəbii şəkildə apardığı qazıntılarda tapılan arxeofaktların zədələnməsinə və öz formasını dəyişməsinə səbəb olur.

Bu elmi məqalədə Gədəbəy rayonunun ərazisindən aşkar olunmuş maddi mədəniyyət nümunələrinin Xocalı-Gədəbəy mədəniyyətini əks etdirən və tunc dövrünü əhatə edən neolit keramikasının funksional və texnoloji xüsusiyyətləri təhlil edilmişdir. Tədqiqatın məqsədi qədim yaşayış düşərgəsi olan Gədəbəyin neolit mədəniyyətinin yerli xüsusiyyətlərini aşkar etmək üçün yerli tayfaların həyat tərzini, sənətkarlıq və məharətinin inkişaf prosesini izləməkdir.

Son illər ərzində Gədəbəy yaşayış düşərgələrinin tarixi, tədqiqi, araşdırılması və axtarışı ilə bağlı müxtəlif başlıq adı altında nüfuzlu elmi jurnallarda, xaricdə və daxildə 9 elmi məqaləm çap olunub.

İstər beynəlxalq, istər respublika, istərsə də regional konfrans və simpoziumlarda Gədəbəy arxeologiyasına və etnoqrafiyasına dair məruzələrlə çıxışlar etmiş, respublika daxilində beynəlxalq arxeoloji ekskursiyalarda fəal iştirak etmişəm.

## ƏDƏBİYYAT

1. Avşarova İ. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı: e.ə. XIV-VII əsrlər / İradə Avşarova; elmi red.: V Əliyev, S.Aşurova; rəy.: Ə.Cəfərov, T.Axundov; rəssam İ.Avşarova; AMEA, Arxeologiya və Etnoqrafiya İn-tu. Bakı: Nurlan, 2007, 192 s.
2. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin rəsmi internet səhifəsi. 2022-06-18 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2019-01-10. Culture Gov Az. (https://culture.gov.az).
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. İnzibati ərazi bölgüsü təsnifatı, 2024. (https://stat.gov.az/menu/5/classifications/source/Inzibati-5.02.2024).
4. Azərbaycanın maddi mədəniyyəti /AzSSR EA, Azərb. Tarixi Muzeyi; [red. S.M.Qazıyev]. Bakı: Azərnəşr və AzSSR EA nəşriyyatı, 1949, C.I, 157 s.
5. Gədəbəy dəfinələri. 2016-03-05 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2009-11-12. (www.wikimedia.az-az.nina.az https://www.wikimedia.az-az.nina.az).
6. Hüseynov M. Azərbaycanın arxeoloji abidələri: Qədim daş dövrü-orta əsrlər: dərs vəsaiti /M.Hüseynov; Q.İsmayılov; N.Quliyev; elmi red. F.Mahmudov; AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, S.M.Kirov ad. ADU. Bakı: Azərnəşr, 1981, 67 s.
7. İvan İvanoviç Meşşaninov. 2017-05-18 tarixində orijinalından arxivləşdirilib. İstifadə tarixi: 2017-05-20. https://az.wikipedia.org›wiki›.
8. Meşaninov İ. Azərbaycan dövr – I qədiminin öyrənilməsi: metodoloji məsələlərə dair /İ.Meşaninov. Bakı: Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi yanında Elmi-Tədqiqat İnstitutu, 1930, 20 s.
9. Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəsmi internet səhifəsi. 2022-06-14 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2019-01-10. (irs.gov.az http://irs.gov.az).
10. Səfərəliyeva G. Azərbaycanın tarixi abidələri və toponimləri. Bakı: «Zərdabi-Nəşr» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi, 2016, 646 s.
11. stat.gov.az. 2024-02-28. 2024-03-14 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2024 Azər-

baycanda şəhər, 04-05.
12. Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6. (https://e-qanun.az/framework/3601).
13. Tarixin Gədəbəy - Xocalı mədəniyyəti mərhələsi. (https://az.wikipedia/org›wiki›Xocalı-Gədəbəymədə).
14. Vəliyev S.T. Arxeologiya elmi Azərbaycan tarixinin öyrənilməsində bir mənbə kimi // Bakı: Sivilizasiya jurnalı, 2019, Cild 8, № 1 (41), s. 59-65.
15. Osmanov F.A. Qafqaz albaniyasının maddi mədəniyyəti Dərslik / F.A.Osmanov. Bakı: Elm, 1982, 213 s.
16. Мещанинов Иван Иванович // Большая советская энциклопедия (rus.): [в 30 т.]. 3-е изд. Москва: Советская энциклопедия, 1969, 161, s.
17. justified_image_grid facebook_id=2222665901206802facebookalbum=2338958059577585

***Резюме***

***Сахиб Велиев***

***Гедабекская археология: важность анализа и продвижения***

Древнейшая история Азербайджана изучается посредством археологических исследований. Исследования, поиски и археологические раскопки, проводимые как нашими местными археологами-любителями, так и нашими археологами, имеющими значительный опыт и способными на высокие знания и опыт, сформированные в рамках науки истории и археологии, доказали, что наша страна является одним из древнейших поселений цивилизации и тысячелетней истории нашего народа.

Материальные и культурные образцы, полученные в результате археологических исследований, поисков и раскопок, позволяют изучать исторические этапы развития нашей культуры и искусства. В этой связи полученные результаты создают условия для связи важных событий в истории с современной эпохой при поддержке археологических раскопок. Материальные и культурные образцы, полученные в результате археологических исследований, поисков и раскопок, позволяют изучать исторические этапы развития нашей культуры и искусства. В этой связи полученные результаты создают условия для связи важных событий в истории с современной эпохой при поддержке археологических раскопок.

Я могу особо выделить Ходжалы-Гедабейскую культуру, которая имеет особый след и место в формировании азербайджанской археологии. Если рассматривать ее отдельно, то также можно увидеть, что на территории Кедабекского района мы столкнулись с древнейшими поселениями человека с древнейшей историей. Я могу сколько угодно касаться идей о схожести и близости древних поселений с древнейшей историей здесь. Наличие исторических мест, древних жилых лагерей, наскальных рисунков, памятников, крепостей, замков, башен, крепостей, подземных и надземных могильных памятников, других материальных свидетельств, полученных в ходе археологических исследований, поисков и раскопок, отражающих факты, о которых я говорил выше, также является фактом, основанным на Ходжалы-Гедабейской культуре, которая датируется XIV веком до нашей эры - началом нашей эры.

Хотя история и древность археологии Кедабека, тот факт, что эти места были древними человеческими лагерями и поселениями, подтверждаются человеческими поселениями в тех местах, очень жаль, что до сегодняшнего дня не было проведено никаких исследований, расследований и раскопок относительно некоторых древних человеческих поселений в этих районах, и ни одно предложение не было высказано нашими археологами.

Помимо того, что это важные темы с точки зрения изучения памятников албанского периода археологии Кедабека и истории его государственности, он также отличается от других древних поселений своими обычаями и традициями, материальными находками и другими отличиями в соответствии с национальной стратегией.

**Ключевые слова:** *Ходжалы-Кедабекская культура, поселение, история, археология, крепость, замок, памятник*

***Summary***

***Sahib Veliyev***


***Gadabay Archaeology: the Importance of Analysis and Promotion***

The oldest history of Azerbaijan is studied through archaeological research. The research, searches and archaeological excavations conducted by both our local amateur archaeologists and our archaeologists, who have significant experience and are capable of high knowledge and experience formed within the science of history and archaeology, have proven that our country is one of the ancient settlements of civilization and the many-thousand-year history of our people.

The material and cultural samples obtained as a result of archaeological research, searches and excavations allow us to study the historical development stages of our culture and art. In this regard, the results obtained create conditions for linking important events in history with the modern era with the support of the archaeological excavations carried out.

Material and cultural samples obtained as a result of archaeological research, searches and excavations allow us to study the historical stages of development of our culture and art. In this regard, the results obtained, with the support of archaeological excavations, create conditions for connecting important events in history with the modern era.

I can especially emphasize the Khojaly-Gadabay culture, which has a special mark and place in the formation of Azerbaijani archeology. If we take it separately, we can also see that we have encountered the oldest human settlements with ancient history in the territory of the Gadabay region. I can touch on as many ideas as desired about the similarity and proximity of the ancient settlements with the oldest history here. The presence of historical sites, ancient residential camps, rock carvings, monuments, fortresses, castles, towers, castles, underground and above-ground tomb monuments, other material evidence obtained during archaeological research, searches and excavations, reflecting the facts I mentioned above, is also a fact based on the Khojaly-Gadabay culture, which dates back to the XIV century BC to the beginning of our era.

Although the history and antiquity of Gadabay archaeology, the fact that those places were ancient human camps and settlements are confirmed by the human settlements in those places, it is very unfortunate that until today, no research, investigations and excavations have been conducted regarding some ancient human settlements in those areas and not a single sentence has been expressed by our archaeologists.

In addition to being important topics in terms of studying the monuments of the Albanian period of Gadabay archaeology and its statehood history, it is also distinguished from other ancient settlements with its customs and traditions, material finds and other differences in line with the national strategy.


**Key words:** *Khojaly-Gadabay culture, settlement, history, archeology, fortress, castle, monument.*

Redaksiya heyətinin üzvü t.ü.f.d. Rüstəmova Aybəniz Vilayət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.